*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 396-402*

https://doi.org/10.62837/2026.3.396

821.512.162-3.09
https://orcid.org/0009-0000-8883-3370
**ŞIRINOVA SAHIBƏ**
Xəzər Universiteti
E-mail: Sahibe1982shirinova@gmail.com

# AZAD QARADƏRƏLININ" ƏLLIDƏN BIR KƏM "ROMANINDA VƏ QIRĞIZ YAZICISI ÇINGIZ AYTMATOVUN "ÇINGIZ XANIN AG BULUDU" POVESTINDƏ REPRESSIYA IZLƏRI

**Xülasə**

Məqalədə Azərbaycan və Qırğız ədəbiyyatında repressiya mövzusu müqayisəli şəkildə araşdırılmışdır. Tədqiqatın predmeti Çingiz Aytmatovun "Çingiz xanin ag" buludu povestində və Azad Qaradərəlinin "Əllidən bir kəm" romanında repressiyanın müqayisəli təhlilidir. Məqsəd həmin dövrdə ədəbi yaradıcılığın ideoloji təzyiqlər altında necə formalaşdığını göstərməkdir. Məqalədə müqayisəli təhlil metodu istifadə olunmuş, hər iki müəllifin əsərlərində repressiyanın bədii ifadəsi və simvolikası öyrənilmişdir. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aytmatovun əsərlərində repressiya mövzusu daha çox sosial və insani aspektdə işlənmiş, Qaradərilinin əsərlərində isə milli və mənəvi dəyərlərin qorunması ön plana çıxmışdır. Bu tədqiqat repressiya dövrü ədəbiyyatının regional fərqlərini və bədii strategiyalarını daha dərindən anlamağa imkan verir.

**Açar sözlər:** Repressiya, Azərbaycan ədəbiyyatı, Qırğız ədəbiyyatı, Çingiz Aytmatov ,Azad Qaradərili, Müqayisəli təhlil, İdeoloji təzyiq.

**Giriş**

Ədəbiyyatda Repressiya adı ilə tanınan, Stalinin rəhbərliyi ilə həyata keçirilən bu dövr milyonlarla insanın xalq düşməni adı ilə ittiham edilməsinə, həbsinə, güllələnərək edam edilməsinə ,ya da əmək düşərgələrinə göndərilərək məhv edilməsinə səbəb olmuşdur. Yaşanan bu qorxu dolu illər bir çox ədəbiyyat nümunələrində fərqli həyat hekayələri formasında öz əksini tapmışdır.Hər iki yazıçı totalitar rejimin insan üzərindəki təzyiqlərini, düşünən və azad fikirli insanların necə sıxısdırıldıgını bədii şəkildə əks etdirmişdir.

**Əsas hissə.**Azad Qaradərəlinin romanı maraqlı bir girişlə başlayır.Ürək döyüntüsü və onun müşayəti ilə insan itkisi belə bir başlanğıcın əsərin sonrası ücün yaxşı bir şey vəd etməyəcəyinə işarədir:"*İkinci minillik bitmiş, üçüncüsü başlamışdır. Ölkələr bi-rbirinə dəymiş, SSRİ boyda imperiya dağılmışdır. O biri respublikalar kimi Azərbaycan da müstəqil olmuşdur. Amma hər əsrin başında və sonunda olduğu kimi ,bu dəfə də torpaq itirmişdik...*

*Minilliyin sona varmasina , üç sıfırın yan-yana düzülməsinə,bir az sonra üçüncü minilliyin başlamasına kompüterlər dözməmiş, sıradan çıxmış, itkilər olmuşdur. Ən böyük itki isə insan itkisi idi. Ancaq insanları təkcə müharibə udmurdu.*

*-Tıp... tıp... tıp... tıp* (3,s.7)

*30-cu illər ictimai -siyasi prosesin ən böyük hadisəsi, heç şübhəsiz Azəbaycan ədəbi mühitindən də yan kecməyən repressiyadır. Özlüyündə siyasi hadisə olan repressiya bir çox sahələri, o cümlədən ədəbi prosesi də öz ağuşuna almış və tarixdə ilk dəfə Azərbaycan yazıçı, şair, tənqidçi, elm və maarif adamlarının kütəvi həbs və məhvi ilə naticələnmişdir.Bununla da siyasi iradə qərar və qətnamələrlə idarə olunan ədəbi prosesə ölüm xofu, həbs qorxusu çökmüşdür.*

*İ.V.Stalinin və Beriyanın repressiya sunamisi Sovetlər birliyində, eləcə də Azərbaycanda yüzlərlə alim, şair və yazıçını, folklorşünası, tənqidçini, heykeltataşı, aktyoru həyatdan qoparmış, onların deyil , ailələrinin də fəlakətinə səbəb olmuşdur.*(5)

*Stalin terror və Sibir haqında arşdırma aparan Papkov 1928-1941- ci illər arasında Sibirdə əhalinin yarısının həbslər, sürgünlər və buna bənzər əməllərdən təsirləndiyinin qeyd edir* .(9,S.31)

Rejimn insanları acınacaqlı vəziyyətə salmasına ən düzgün formada qiymət verənlərdən biri də Sergey Davlatov olmuşdur.O öz müşahidələrini haqlı olaraq belə qeyd edirdi ." *Biz Stalini haqlı olaraq daim lənətləyirdik . Amma mən soruşmaq istərdim: 4 milionun danosunu kim yazib?"* (9,s.31)

Stalin dövründə donosların sayı o qədər çox idi ki ,insanlar özlərini qorumaq və sistemə sadiqliyini sübut etmək üçün başqalarını qınamaga məcbur olurdular. Artan təzyiqlər qarşısında susmaq isə özünü qorumaq, mübarizə aparmaq üsulu idi.

Bu dövr XX əsrin 30-cu illərində Sovet İttifaqının tərkibndə olan bütün xalqlar üçün ağır bir dövr idi. Azərbaycan və Qırğız ədəbiyyatları da bu dövrdən yan keçmədi.Xalq düşməni damğası Qırğız və Azərbaycan ziyalılarına vurulan bir ləkə kimi illərcə onlari təqib etdi. Azərbaycan ədəbiyyatının parlaq nümayəndələri- M.Müşfiq, H.Cavid ,Ə.Cavad ,S.Mümtaz , H.Zeynallı və başqaları kimi Qırğız ədəbiyyatının Kasım Tınıstanov, Cusup Abdıkerimov , Törökul Aytmatov kimi ziyalıları həbs edildi,güllələndi. Qırğız və Azərbaycan ədəbiyyatında repressiya dövrü bir millətin söz azadlığının boğulduğu,lakin eyni zamanda mənəvi dirənişin və milli kimlyin sınağa cəkildiyi mərhələ idi .Hər iki xalqın yazıçı və şairləri bəzən həyatları bahasına sözün, ədalətin və azadlığın gücünə inamlarını qorudular. Repressiya dövrü, Qırğız və Azərbaycan ədebiyyatında buraxdığı izlərlə gələcək nəsillərə azadlığın dəyərini bilmələrinə yardımçı oldu.

*1937-38-ci illərdə dəqiq sayı bəlli olmasa da təkcə Azərbaycanda 70-80min ziyalı, alim, yazıçı, rəssam ,din xadimi qətlə yetirildi .*

*Yaxud, Qırğızıstsnda qırmızı terror qurbanlarının sayı 40 minə çatıb.*

*Nəzərə alınsa ki, o dövrdə Qırğızıstan əhalisinin sayi 2milyon olub, 40 min nəfər əhalinin 2 faizinə uygun gəlirdi. Bu insanlar isə cəmiyyətin sütunu sayılan, onu formalaşdıran ziyalı təbəqəyə mənsub idi .Onların arasında ilk Qırgız professoru Kasım Tınıstanov, Abdulkerim Orozbekov, Törekul Aytmatov, Murat Salihov kimi bir çox ziyalılar vardı. Digər türk xalqlqrında olduğu kimi Qırğızıstanda da bu ziyalı itkisi ölkənin gələcək inkişafına ciddi təsir göstərmişdir.(9,s.31)*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 396-402*

Bütün dönəmlərdə bu mövzu əsərlərdə özünü fərqli şəkildə əks etdirmişdir. 50- ci illərə qədər bu mövzuda nəinki yazmaq ,düşunmək belə qorxulu idi. Buna baxmayaraq dövrün xarakterini əks etdirən əsərlər yazılırdı. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatını təmsil edən yazıçılardan olan A.Qaradərəlinin yaradıcılığında roman janrı xüsusi yer tutur. Yaradiciliga hekayə janrı ilə başlamasına baxmayaraq, ardıcıl olaraq "Günəş tutulan yerdə"(2011),"Kuma-Manıç çökəkliyi"(2012), "Şəhərcik"(2011-2012), "Əllidən bir kəm"(2016-2017), "Morq çiçəkləri"(2017-2018), "Ən böyük adam"(2021), "Ucubuluq"(2020-2021), "Cəbrayıl əfsanəsi"(2020-2021) və.s.romanlarını qələmə almışdır. A.Qaradərəlinin romanları cəmiyyətin müxtəlif təbəqələrinin həyatını, yaşadığı zamanın aktual problemlərini, Sovet dönəmindən Vətən müharibəsinəcən uzanan dövrü ustalıqla əks etdirir. Yazıçı xx yüzillikdə Azərbaycan cəmiyyətinin başına gələn müsibətləri, milli toplumun və xarakterin mənən aşınması,özgələsmesi hallarını sovet rejiminde görür, "Əllidən bir kəm"romanında bu repressiv rejimin əlamətlərini açır, rejimin dəyişdirdiyi, mənfiləşdirdiyi qəhrəmanların timsalında təqdim və ifşa edir . Yazıçının bu romanını görkəmli Qırğız yazıçısı C.Aytmatovun "Çingiz xanın ağ buludu" povesti ilə müqaisə etməyə çalışmışıq. Hər iki əsəri müqayisə etməkdə məqsəd totalitar sistemin insanlara vurduğu ziyan, sovet rejiminin insanlara olan münasibəti, ideoloji məhdudiyyətlərin zaman və məkan tanımadan insan üzərindəki hökmüranlığını əks etdirməkdir. "Əlliden bir kəm" əsərində hadisələr bir ali məktəb mühitində baş versə də , ümumiləşdirici səciyyə daşıyır. Rüşvətxorluğun, yerlibazlığın baş alıb getməsi, elmi pedaqoji mühiti sıradan çıxarması ilə yanaşı, gənc nəslin həyatını korlayaraq onları işıqlı gələcəkdən məhrum edir. Əsərdə Imir Çingiz obrazı Sovet dönəmi cismən və mənən məhv edilmiş minlərlə ziyalının ümumiləşdirilmiş obrazıdır. Təsadüfü deyil ki, yazıçı "Əllidən bir kəm" romanını "H.Cavid və bütün repressiya şəhidlərinin xatirəsinə" ithaf etmişdir

*"Bu yerlərdə qatarlar gundogandan günbatana, günbatandan da gündoğana gedirdi...(2,s.292)*

*Bir əli sükanda ,o birisi ürəyinin basındaydı.Maşın da saatda 100 - lə gedirdi.(3,s.7)*

Hər iki əsərdən gətirdiyimiz bu iki cümlə,iki insanın fərqli tale yolunu əks etdirir. Qatar dəmir reyslər üzərində hərəkət edir, maşın daşlı - kəsəkli yolla şütüyür,ancaq orada gedən insanların taleyi müxtəlifdir. Sanki zamanın dönməzliyi ,həyatın axarı içərisində insan kiçik bir yolçudur.

"Çingiz xanın ağ bulu"hekayələrinin tapılması onun "günahlandrılması" üçün əsas səbəb deyildimi?

"Manqurt əfsanəsi" əcdadların unudulmuş və gərəksiz dilini dirçəltməyə, millətlərin assimilyasiya olunmasına müqavimət göstərməyə, üsyankar çağırış idi."Sarıözək qətl"i isə güclü ali hakimiyyətin ittihamı ,dövlət mənafeyinin şəxsiyyətin mənafeyindən yüksək olması, ideyasının danılması, mənfur burjuaziya fərdiyyəçiliyinə rəğbət, kollektivləşmənin ümumi xəttinin,daha doğrusu kollektivin vahid məqsədə tabe edilməsi fikrinin inkarı idi. Sosializm prinsiplərinin və mənafelərinin istənilən pozuntusu bəlli olduğu kimi amansızca cəzalandırılırdı.

*"Tansıkbayev həmin qədimdənqalma rəvayətə isti- isti əhəmiyyət verməmişdir və bu rəvayət onun ağlına elə indi düşmüşdü. Axı deyəsən içinə getmiş olsa ,oradan siyasi eyhama bənzər nəsə bir şey eşeleyib çıxarmaq mümkün olacaqdı.(2,s.307)*

*Tanzıkbayovun əlində o,kitabı bağlanmış bir qurbanlıqdır.Tansıkbayov da sosializmin cahanşümul hərəkətinin qarşısını almağı aglına gətirən, Yer üzündə komunizmin təntənəsinə əngəl törədən, düşmənlərə qarşı ardı- arası kəsilməyən mübarizəyə cəfəng, lakin daim öz-özünə törəyib artan cəza sisteminin bir vintciyi idi.(2,s.364)*

Ç.Aytmatov bu sətrlərlə Abutalıbın simasında günahsız yerə güllələnən minlərlə günahsız ziyalının, şairin, yazıçının,alimin obrazını yaratmışdır.Abutalıb obrazı azad düşüncənin, vicdanın və humanizmin təcəssümüdür. Onun günahı cinayət deyil, sistemin istədiyi "siyasi düşmən"obrazını yaratmaq üçün qurulan ittihamdır.

A.Qaradərəlinin "Əllidən bir kəm" romanında repressiya motivi az görünsə də bütün hadisələrin təkanvericisidir.

Imir Çingizin həyatında baş verən hadisələr onun repressiya mövzusuna toxunması ilə başlayır. Imir Çingiz obrazı ilə insanın təbiətcə saf,zərərsiz varlıq olaraq dünyaya gəlməsinə baxmayaraq, cəmiyyətin dəyərləri, stereotipləri və social təzyiqləri nəticəsində dəyişməsi öz əksini tapmışdır.

Əsərin əvvəlində onun gələcəyə açıq gözlə baxa bilən bir gənc kimi görürük.Hətta Sovet rejiminin insanların başına gətirdiyi fəlakətləri qələmə alacaq,onu ifşa edəcək bacarığa malikdir.Tələbəlik illərində H.Cavidin tədqiqatcısı olan və həqiqətləri üzə çıxardığı üçün təqib və təzyiqlərə məruz qalan ədəbiyyatşünas, tənqidçi M.Əlioglu haqqında yazdığı məqalə işlədiyi universitetdə səs – küyə səbəb olur.

Həm H.Cavidin həyat hekayəsi,həm yaşadığı cəmiyyətə etiraz edən,intiharı çıxış yolu görən M.Əlioglunun həyatı Sovet dövrü, mühiti və ədəbiyyatı üçün arzuolunmaz, qəbul olunmaz hadisə idi.Romanı oxuduqca rejimin sərt üzünü görürük.1930 -cu illər repressiyaları H.Cavidi, M.Müşfiqi, Ə.Cavadı ölümə məhkum edən ictimai mühit xatırlanır. M.Əlioglunun intiharı yazıçılar mühitində təqiblərə məruz qalan Ə.Kərimin acı taleyi,M.Hüseynin ölüm faktı və bütün bunların arxasında ədəbi mühitə vurulan ağır zərbələr əks olunur, cəmiyyətin mənəvi köklərinin nə qədər zədələndiyini göstərir.

Abutalıb obrazı keçmişi gələcəyə daşıyan ziyalı idi.Onun topladığı əfsanə və rəvayətlərdə xalqın keçmişi, yaddaşı əks olunurdu. Lakin mövcud rejim Abutalıbı məhv etməklə onun keçmişini də əlindən almırdımı? Onu manqurta cevirmirdimi?Soveti təmsil edən Tansıkbayev şəxsi mənafeyi, işində bir pillə yüksəlməsi üçün Abutalıba qarşı yalançı ittihamlar irəli sürmürdümü ?

Təbii ki bu da rejimin nə qədər amansız sərt üzünün göstəricisi idi.

*Tansıkbayev manqurt haqqında əfsanədə dumanlı şəkildə ideoloji baxımdan şübhə doğuran nəsə bir şey duymuş olsa belə, bunu hələ də qəti təsdiq edə bilmirdi,bu işin üstünü büsbütün aça biləcəyinə ürək qızdırmırdı.(2,s307)*

"Əllidən bir kəm " əsərində Imirin qeyd dəftərindən götürülmüş bir hissədə isə rejimin insanları insanlıqdan çıxaran,onları qarabaqara izləyən fiqurlarını görürük.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 396-402*

*MK-nın qərarı ilə M.Əlioglu"Azərbaycan" jurnalının redaksiya heyətindən azad edilir, tənqidçinin adı MK-nın qara siyahısına düşür, əsərləri nəzarətə götürülür.Ən dəhşətlisi isə bu idi: Məsudu evdə ,ailədə qəbul etməyən,azad fikrinə qarşı çıxan, yazdıqlarını bəyənməyən bir ağsaqqal şəxs vardı. Sovet quruluşunun gözübağlı fanatı,qart komunist olan atası Əli Vəliyev.*

*Mən məqaləmdə Caviddən sitatlar gətirərək mövcud rejimin insanları alcaltmasını göstərmiş,bir növ Əliogluna haqq qazandırmışdım.Cavidin bu misralarını misal çəkərək fikrimi əsaslandırmağa çalışmışdım.*

*Yurdu sarmış qabarıq,yaltaqlıq*
*Yüksəliş varsa,səbəb alçaqlıq.(3,s130)*

Ilk elmi ədəbi fəaliyyətə başlayan İmir Çingiz yolun başlanğıcında KQB- Dövlət Təhlükəsizlik Komutəsinin təqibləri ilə üzləşir. Təbii ki arxa- dayağı olmayan İmir Çingiz təklənir. Həyatını araşdırdığı insanların faciəli taleyini yaşamaq, İmir kimi iradəsi zəif biri üçün deyildi.Bu isə tutdugu yodan əl çəkərək onu qaranlıga sürükləyən Abbasquliyein əlaltısı olmaga vadar edir. Rejimin təmsilçisi olan Abasquliyevin əlində oyuncağa çevrilən, şəxsi imzası olmayan birinə çevrilir. Məsud Əlioğlu ilə bağli yazdığı məqalə isə onu daha da dolaşığa salır. Ona dogru dikilən baxışların altında tab gətirə bilmir, geriyə addım atır. Bu isə onun H.Cavid, M.Müşfiq kimi ziyalılarla eyni sırada addımlamasına mane oldu. İmir öz daxili ilə gerçəklik arasında sıxılır, bu onun cəmiyyətdə özünü tapmamasına səbəb olur.Bu isə məhz repressiyanın insanda yaratdığı psixoloji travma idi. Sevimli müəllimi M.Əlioglunun ona dediyi sözlər həmim dövrün, zamanın insan psixologiyasında yaratdığı xofun ,qorxunun göstericisi idi.

*Bu yol qorxuludur bilirəm,qorxduğun məlumat və fakların zəhmi səni basır, içini gəmirir onlar kimi gedər- gəlməzə göndərilmək qorxusu səni rahat buraxmır...*

*Tanış mənzərədir... Amma bir Cavidin dönməzliyi bu millətin simasını qoruyur O torpaqlar altında yatan günahsız insanların naləsindən olacaq ki həqiqət simfoniyası yaradılacaq.(3,s.218)*

*İmir Çingiz ölümdən qorxurdu.Ona görə H.Cavidin yolunu getməkdən imtina etdi.(6, s.331)*

Romanda İsmayıl Şıxlı ,Əli Sultanlı ,Eldar Baxış, Tofiq Qəhrəmanov kimi ziyalı mühitini təmsil edən obrazlar da var. Hətta:"*Onlar üç dost olublar,Rail, Tofq, İmir. İnstitutun" Gənc müəllim" qəzetinin redaksiyasına yığışar , fikir mübadiləsi edərdilər.(3,s.173)* Sonradan DTK-nın işgəncə üsullarına dözməyib Rail psixoloji xəstəliyə tutulur , Tofiq Qəhrəmanov isə mühitə üsyan edərək özünəqəsd edir. Həmçinin, İmirə müəllimi İsmayil Şıxlının da böyük təsiri olur.Bütün bunlar Əllidən bir kəm romanını yazarkən yazıcının real hadisələrə üz tutduğunu göstərir. Əsərdə İmirin başına gələn hadisələrin , ziddiyyətli həyatının arxasında məhs repressiv rejimin durduguna işarə edilir. " Çingiz xanın ag buludu" əsərində sovet dövründə baş verən repressiya, mənəvi deqredesiya və insanın öz təbiətindən uzaqlaşması kimi problemlər əks olunur.Əsərdə hadisələr simvolik şəkildə əks etdirilir.İnsan ideologiyası

hakimiyyətin maddi marağının təsiri ilə insanlıqdan uzaqlaşır.Əsərdə Çingiz xan obrazı hakimiyyətin qəddarlığının simvolu, sovet totalitarizminin əksi kimi göstərilir.

*O, Ulu Göyün iradəsinin yerdəki yayımcısı idi .Göy isə elə Çingiz xan kimi yalnız zoru, yalnız zorun təzahürünü , güc kimdədirsə yalnız onu tanıyır. Çingiz xan belə hesab eləyir ki, güc onun özündədir.(2,s.319)*

Çingiz xan obrazı hakimiyyətin qəddarlıgının, insan düşüncəsinə hökm etmə istəklərinin simvoludur.Bu isə Stalin dövrü repressiyalarına, azadlıgın məhdudlasdırılmasına bənzəyir. Qorxu və itaət içində yaşayan bir nəsli təmsil edir. Hər iki əsərdə müəllif insanın azadlıgı, vicdanı və yaddaşının qorunması ideyasını irəli sürür. Repressiya təkcə insanları deyil, bütöv bir xalqın ruhunu, tarixini və yaddaşını məhv edə bilər. Bütün bunlara baxmayaraq insan ruhunun azadlıq istəyi hec vaxt sönmür. Müqayisəmizdən belə nəticə çıxara bilərik ki repressiya və zorakılıq bütün xalqların ədəbiyyatında ,tarixində oxşar ağrılı izlər buraxmışdır.

## NƏTİCƏ

Ümumiyyətlə repressiya illəri bir cox xalqların ədəbiyyatı ilə yanaşı ,Azərbaycan və Qırğız ədəbiyyatının da inkişafina ciddi təsir göstərmiş, bir çox istedadlı şair və yazıçının yaradıcılıq azadlığını məhdudlaşdırmışdır. Bu dövrdə yaranan əsərlərdə ideoloji tələblər bədii dəyəri üstələmiş,sənət azad ifadə imkanlarını itirmişdir. Buna baxmayaraq bir çox yazıçılar fikirlərini simvolik şəkildə çatdıraraq milli mənəvi dəyərləri qoruyub saxlamağı bacarmışlar.

## Ədəbiyyat siyahısı

1.Asif Rüstəmli. "Repressiya və ədəbiyyat", "525-ci qəzet".
2.Aytmatov. Seçilmiş əsərləri, "Öndər nəşriyyat", 2004.
3.Azad Qaradərəli. "Əllidən bir kəm", "Alatoran", 2017.
4."Azad Qaradərəlinin söz aləmi", məqalələr toplusu, "Qanun nəşriyyatı", 2024.
5.Bədirxan Əhmədov. "Ədəbiyyat və repressiya", "Azərbaycan" jurnalı, 2015.
6.G. Əskərova. Dissertasiya, Bakı, 2024.
7.Mehman Həsənli. "Çingiz Aytmatov fenomeni və Azərbaycan", Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, 2020.
8."Repressiya gizli və gerçəkləri ilə...", "Ədəbiyyat qəzeti", 2018, 20 yanvar, s. 20-22.
9."Türk dünyası ədəbiyyatında repressiya", Türk Dünyası Dil və Ədəbiyyat Dərgisi, sayı: 48, güz 2019, Ankara, Türkiyə.
10.Vaqif Osmanlı. "Sözün Azadı", Bakı, 2024.

**Ширинова Сахиба Talat**

**В романе Азата Гарадарели “Меньше пятидесяти” и в повести киргизского писателя Чингиза Айтматова “Белое облако Чингиз-хана”: следы репрессий**

**Аннотация:**

В статье тема репрессий в азербайджанской и кыргызской литературе исследуется в сравнительном аспекте. Предметом исследования является

сравнительный анализ репрессий в повести Чингиза Айтматова “Белое облако Чингисхана” и в романе Азада Карадарели “Меньше на одну руку”. Цель состоит в том, чтобы показать, как в тот период литературное творчество формировалось под идеологическим давлением. В статье использован метод сравнительного анализа, изучены художественное выражение и символика репрессий в произведениях обоих авторов. В результате исследования установлено, что в произведениях Айтматова тема репрессий раскрывается преимущественно в социальном и гуманистическом аспектах, тогда как в произведениях Карадарели на первый план выдвигается защита национальных и духовных ценностей. Данное исследование позволяет глубже понять региональные различия и художественные стратегии литературы периода репрессий.

**Ключевые слова:** Репрессия, азербайджанская литература, кыргызская литература, Чингиз Айтматов, Азад Карадарели, сравнительный анализ, идеологическое давление.

**Sahiba Shirinova Talat**

**Traces of Repression in Azad Garadareli’s Novel “Less Than Fifty” and in the Kyrgyz Writer Chingiz Aitmatov’s Novella “The White Cloud of Genghis Khan”**

**Abstract:**

The article comparatively examines the theme of repression in Azerbaijani and Kyrgyz literature. The subject of the research is a comparative analysis of repression in Chingiz Aitmatov’s novella “The White Cloud of Genghis Khan” and Azad Garadarili’s novel “One Hand Less.” The aim is to demonstrate how literary creativity was shaped under ideological pressure during that period. The study employs the comparative analysis method and explores the artistic expression and symbolism of repression in the works of both authors. The findings reveal that in Aitmatov’s works, the theme of repression is addressed mainly from social and humanistic perspectives, whereas in Garadarili’s works the protection of national and spiritual values comes to the forefront. This research provides a deeper understanding of the regional differences and artistic strategies of the literature of the repression period.

**Keywords:** Repression, Azerbaijani literature, Kyrgyz literature, Chingiz Aitmatov, Azad Garadarili, comparative analysis, ideological pressure.

**Rəyçi: fl.f. d., dos Mehman Həsənli**